# Qərbi Azərbaycana Qayıdış haqqımızdır

**Tarixdən məlumdur ki, Türkiyə və İranın Rusiya ilə dəfələrlə müharibələri olmuşdur. Müharibələrin gedişi zamanı Rusiya çalışmışdır ki, bu iki müsəlman ölkələrlə həmsərhəd olan bir sahəni ələ keçirib özü üçün müdafiə zonası yaratsın. Bu sahədə ona sədaqətlə xidmət edə biləcək, satqınlığı, casusluğu, ikiüzlülüyü bacaran elə xalq yerləşdirilsin ki, onlar bu müsəlman dövlətlərinə qarşı düşmən olsun, Rusiyanın mənafeyini müdafiə etsin. Belə xarakterli millət isə ancaq ermənilər idi. Çünki 1812-ci ildə Rusiya-Türkiyə müharibəsi zamanı ermənilər Türkiyənin məğlub olması, Krımın zəbt edilməsi işində Rusiya hökumətinə və onun qoşun hissəsinə hər cəhətdən yaxından kömək etmişlər. Artıq o zaman Rusiya dövlətində inam yarandı ki, İran və Türkiyə sərhədləri arasında buna sədaqətlə xidmət edəcək millət min bir hiylə işlətməyi bacaran, xaç qardaşları ermənilər ola bilər.**

Fürsəti əldən verməyən Rusiya 1828-ci ildə İrandan 40 min, Türkiyədən 90 min ermənini İrəvan və Naxçıvan xanlıqları torpağından qovulmuş azərbaycanlıların evlərində yerləşdirdilər. 1828-ci il martın 20-də müsəlmanların Novruz bayramı günü rus çarı I Nikolay İrəvan və Naxçıvan xanlıqlarını erməni vilayəti elan etdi. Vilayətə gətirilən ermənilər özlərinə münasib, Azərbaycan əhalisinə ziyan vuran ərazilərdə yerləşdirildi.



Həmin vaxtlar azərbaycanlılar heyvandarlıqla məşğul olurdular. Gələn ermənilər Araz ətrafı və başqa yerlərdə azərbaycanlıların yataq yerlərində yerləşdirilirdi. Bu isə erməni-müsəlman ziddiyyətlərinə səbəb olurdu.

Uzaqgörən babalarımız hələ o vaxtlar başa düşürdülər ki, erməni vandalları harada yerləşirlərsə, bir müddət sonra deyir ki, bu yer, bu kilsə mənim ulu babamın olub. Hətta bəzi daşların üzərinə erməni yazıları həkk edib torpağın dərinliyinə basdırıblar. Necə ki, indi bizim gözümüzün qabağında dünyaya car çəkib şər-böhtan atıb deyirlər: İndiki Ermənistan, Qarabağ bizim ulu baba yurdumuzdur. Ona görə də qəbul olunmuş şərtlərə əməl edən ağsaqqallar gətirilmiş erməniləri Araz çayından 5-6 km aralı olan XII-XIII əsrlərdə tikilmiş Xorvirab kilsəsi ətrafında yox, Araz çayından 20-25 km aralı olan Qərbi Azərbaycanın Vedi rayonunun ən az məhsuldar, nisbətən çox su qıtlığı çəkən bir daşlı-qumlu dağın dibində yerləşdirdilər. O dövrdə Dəvəli, Reyhanlı kəndlərində, eləcə də İlan dağı adlanan dağın döşündəki Zincirli kəndində və tarixən Cəhənnəm dərəsi adlanan, sonralar da Cəhənnəmdərə adı ilə məşhur olan bu dərənin başında Çanaxçı, Qaşqa, Keşişverən kəndlərində məskunlaşdılar.

Qərbi Azərbaycanın Qəmərli rayonunda isə Arazdan daha çox aralı olan İmanşalı, Qoyləsər, Toxançılı, Qəmərli, Yuva, Ayaşlı, Uğurbəyli, Dəllər kəndlərində də ermənilər yerləşdirildi. Onlardan 3-6 km aralıda isə Şıxlar, Kiçik Vedi, Qaralar, Alməməd, Sabunçu və başqa azərbaycanlı kəndləri yerləşirdi.

1820-30-cu illərdə xaricdən gətirilən ermənilərin bir hissəsi Dərələyəz zonasında dağlıq və azərbaycanlıların qış otlağı olmayan yerlərdə məskunlaşdırıldı.

Bir müddət keçdikdən sonra Göyçə gölü ətrafında - Basarkeçərin Qamışlı, Qırxbulaq, Tüskülü, Aşağı Zağalı, Gödəkbulaq, Alçalı, Böyük Məzrə, Alçalı, Kolanıqırılan, Ayqırıq, Zolaxaç, Qaranlıq, Gözəldərə, Başkənd, Kəvər, Ördəkli və digər kəndlərində də ermənilər yerləşdirildi.

Qeyd edək ki, 1918-1919-cu illərdə Qərbi Azərbaycanda erməni şovinistləri xalqımıza qarşı qanlı cinayətlər törətmiş, 60 Azərbaycan kəndi haylar tərəfindən dağıdılıb viran edilmişdir.

Basarkeçər rayonunun Zod, Ağkilsə, Daşkənd, Qızılvəng kəndlərində köhnə alban kilsələri var idi. Sonralar haylar bu alban kilsələrini də erməniləşdirmişlər.

1948-1953-cü illərdə azərbaycanlıların zorla köçürülməsindən (Sovet deportasiyasından) sonra Martuni rayonunun ermənilərdən ibarət əhalisinin 50-55 faizi dolanışıqları olmadıqlarına görə Vedi və Sisyan, Yeğeqnadzor, Paşalı, Eçmiədzin, Zəngibasar rayonlarına köçürüldü.



Azərbaycanlıların deportasiyasından sonra erməni daşnakları daha da azğınlaşdılar. Onlar Moskvanı, Mixail Qorbaçovu ələ alaraq öz məkrli niyyətlərini reallaşdırmağa çalışdılar, uydurma Qarabağ məsələsini ortaya atdılar. Nəticədə 1988-ci ildə 300 min Qərbi Azərbaycandakı soydaşlarımız əzab və işgəncə ilə ata-baba yurdlarından qovuldu. Qəddar ermənilər köçürülmə dövründə Quqark rayonunda azyaşlı uşaqları su borularına doldurub, boruları qaynaq etdilər. Görəsən, körpə balaların günahı nə idi?

Artıq 37 ildir ki, biz Oğuz yurdundan, Qərbi Azərbaycandakı yurd yerlərindən aralı düşmüşük. 2020-ci ildə cəmi 44 gün ərzində erməni separatçılarının işğalı altında olan ərazilərimiz yağı düşməndən təmizləndi. Vətən müharibəsində tarixi qələbədən sonra əsas hədəf Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının reallaşmasıdır. Bu məqsədlə Qərbi Azərbaycan İcmasında məqsədyönlü iş aparılır. Biz qayıdacağıq, ermənilər istəsələr də, istəməsələr də...

İki il əvvəl Almaniyada Qərbi azərbaycanlıların geniş toplantısı keçirilmiş, Özbəkistan, Qazaxıstan və digər şəhərlərdə Qərbi Azərbaycan cəmiyyətləri yaranmışdır. Bir sözlə, Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının reallığa çevrilməsi üçün bu gün məqsədyönlü iş aparılır. İndi zaman xalqımızın xeyrinə işləyir. Artıq tarixi şərait yaranmışdır. Bizim doğma yurd yerlərinə qayıtmağımıza ümidlər artıb. Qərbi Azərbaycana qayıtmaq haqqımızdır...

**İqbal VƏLİYEV,**
**Moskva şəhəri, iş adamı.**

Respublika .- 2025.- 2 aprel (№62).- S.21.